# Unutqanlıq bizə yaddır

## "Dəmir yumruğ"un Zəfəri

Qarabağı, işğalda olan torpaqlarımızı geri qaytarmaq üçün Vətən müharibəsinə başladığımız 27 sentyabr tarixindən, xalqımızın 30 illik vətən həsrətinə son qoyaraq, qalib ölkənin vətəndaşı olmaq sevincini bizlərə yaşadan o tarixi gün artıq 2 il arxada qalır. Bu gün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları müqəddəs Vətənimiz uğrunda canından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Bu gün respublikanın bütün küçə, prospekt və meydanlarında, evlərin balkonlarında üçrəngli bayrağımız dalğalanır. Məscidlərdə, kilsələrdə, sinaqoqlarda Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunur. İnsanlar Anım Gününü həm də zəfər və iftixar günü kimi qeyd edirlər. Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi. Biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Bu Zəfərin əsasını xalq-iqtidar birliyi təşkil edirdi. Çünki dövlətin siyasəti xalq tərəfindən dəstəklənir və buna böyük inam vardır.

Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi, qalib dövlət kimi yaşayır və bundan sonra da müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Qardaş Türkiyə və qardaş türk xalqları müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, ölkəmizə öz dəstəklərini göstərdilər. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyinin gücünü və sarsılmazlığını sübut etdi.

Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyir, qəhrəman qazilərimizə can sağlığı arzulayıram. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastanlara çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır.

Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Odur ki, hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz heç nəyi unutmamalıyıq. Biz şəhidlərimizi, Xocalı qurbanlarını, dağılmış şəhərlərimizi, təhqir olunmuş mədəni abidələrimizi unuda bilmərik. Azərbaycan xalqı bunu öz yaddaşında daim saxlamalıdır.

Biz qurtuluş savaşında minlərlə şəhid vermişik, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda itkin düşənlər, yaralanaraq sağlamlığını itirənlər vardır. Azərbaycan xalqı, ölkə başçısı bu fədailəri heç bir vaxt unutmur. Onlar daima dövlətin diqqət və qayğısı altındadırlar.

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Kapitulyasiya aktına imza atmalarına baxmayaraq mənfur düşmən yenə də sərhədlərimizi pozmağa cəhd edir, atəşkəsi pozur. Nəticədə çəhidlərimiz, yarlılarımız olur. Ancaq erməni faşizmi bilməlidir ki, o bir də baş qaldırsa, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaratsa, heç tərəddüd etmədən onun başı bir daha əziləcək. Bunu Ermənistan və onun havadarları unutmasınlar, yadda saxlasınlar ki, müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir.

**Zinyət BAĞIROVA,**
**Qəbələ rayon Qeydiyyat Şöbəsinin müdiri.**

## Rayonumuzdan olan yaralanmış hərbi qulluqçuların ailə üzvləri evlərində ziyarət edilmişdir







Azərbaycan-Ermənistan dövlət sərhəddində 12-14 sentyabr 2022-ci il tarixlərində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribata cavab olaraq ordumuz tərəfindən həyata keçirilən əməliyyatlar zamanı yaralanmış hərbi qulluqçuların ailə üzvləri Qəbələ Rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən evlərində ziyarət edilmiş, onlarla mənəvi-psixoloji söhbətlər aparılmış və problemləri ilə maraqlanılmışdır. Hərbi qulluqçuların ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

## Xatirə kompleksinin açılışı olub




Vətən müharibəsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış İqbal Babayevin doğum günü münasibətilə Qəbələ şəhərində şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilən kompleksin açılışı olub. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların nümayəndələrinin, şəhidin ailə üzvlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi xatirə kompleksinin açılışında çıxış edənlər 2020-ci il sentyabrın 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışmış, onların xatirələrinin heç bir zaman unudulmayacağını vurğulamışlar. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Vətənpərvərlik



19 ilin ömrü. Bu ömür bəzilərinə çox qısa gəlsə də şəhid ömrü bitib tükənməzdir.

Fariz Rəhimov Zahir oğlu Azərbaycanın Silahlı qüvvələrinin kəşfiyyatçı əsgəri idi. Damarında coşqun ləzgi qanı axırdı. Atası Birinci Qarabağ müharibəsi veteranı idi. Fariz illərlə dinləmişdi müharibənin acılarını... ermənilərin vəhşiliklərini, şəhər və kəndlərimizin viran qoyulduğunu, uşaqların, qocaların, ana-bacıların qəddarlıqla öldürüldüyünü. Bəzən uşaqlar eşitməsin deyə bəzi hadisələri gizlədirdi ata. Amma Farizə eşitdikləri bəs edirdi düşmənə nifrət etmək üçün.

44 günlük müharibə başlayanda elə ilk gündən Fariz bu döyüşlərə qatıldı. Onun qəlbi sevinirdi. Atasının, xalqın, torpaqların intiqamının alınma vaxtı idi. Füzuli, Cəbrayıl, Xocavənd, Laçın uğrunda gedən döyüşlərdə iştirak etdi, döyüş yoldaşları ilə qorxmadan düşməni iti qovan kimi qovurdular. Ölümü düşünmədən "ya qalib, ya şəhadət" deyərək, bayrağı işğal altından azad etdikləri torpaqlara sancırdılar.

Şuşaya doğru yol aldılar. Yorulmaq bilmədən təpələr aşdılar, sıldırım dağlar aşdılar Şuşaya çatmaq üçün. Anasının qucağına yüyürən körpə kimi. Fariz 28 oktyabrda son dəfə atası ilə telefonla danışdı...

10 noyabr Qəbələnin Əmirvan kəndi 4-cü şəhidini qarşıladı. Bu şəhid Rəhimov Fariz idi.

Xatırladaq ki, Fariz Rəhimov Zahir oğlu 2001-ci il 20 sentyabr tarixində Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. Fariz Rəhimov, 2006-cı ildə Əmirvan kənd orta məktəbində orta təhsilə başlamış və 9-cu sinfi bitirdikdən sonra, 2016-cı ildə Bakı şəhər 12 saylı Bakı Peşə Liseyinə qəbul olub və 2017-ci ildə həmin təhsil müəssisəsindən Geniş Profilli Dəzgahçı dərəcəsi ilə məzun olub.

Azərbaycan Ordusunun əsgəri olan Fariz Rəhimov 2019-cu ilin payız çağırışında hərbi xidmətə çağrılıb.

Bu il sentyabrın 20-də artıq Farizin cənnətdəki ikinci ad günü qeyd edilib və bu münasibətlə anım günü keçirilib. Anım günündə rayon ictimaiyyəti, "Qəbələnin səsi" şairlər birliyinin üzvləri iştirak edib.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**